Təsdiq edirəm

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının

rektoru, professor F.Ş.Bədəlbəyli

__________________________

"28" mart 2023-il

**Ü.HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASININ**

**STRATEJİ İNKİŞAF PLANI**

**BAKI - 2023**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**

# STRATEJİ İNKİŞAF PLANI

Ü.Hacıbəyli adına Bakı Musiqi

Akademiyasının Elmi Şurasının

28 mart 2023-cü il

tarixli iclasının qərarı ilə

(protokol № 6) təsdiq edilmişdir

**BAKI - 2023**

## ÖN SÖZ

Təqdim olunan sənəd Bakı Musiqi Akademiyasının 2023-2027-ci illər üzrə İnkişaf Strategiyasını əks etdirir. Bu sənəd Bakı Musiqi Akademiyasının qarşısında duran strateji vəzifələrin gələcək 5 il ərzində ardıcıl olaraq həyata keçirilməsini təmin etmək məqsədilə təqdim edilir.

Ölkəmiz son dövrlər müxtəlif sahələr üzrə dayanıqlı inkişafa nail olmuş, təhsil və elm sektorunda əhəmiyyətli irəliləyişlər, uğurlar əldə etmişdir. Təhsil sistemimizin inkişafı və dünyanın qabaqcıl ölkələri ilə rəqabət apara biləcək səviyyədə olması təhsilin məzmununun yenilənməsi, qlobal təhsil məkanına inteqrasiya, habelə ali təhsilin informasiya cəmiyyətinin və biliklərə əsaslanan sosial-iqtisadi sahələrin tələblərinə uyğunlaşdırılmasına əsaslanan zəruri tədbirlərin həyata keçirilməsi ilə mümkün olmuşdur. Bakı Musiqi Akademiyası ölkəmizin ən böyük ali musiqi təhsil ocağı, Şərqin ilk Konservatoriyası olmaqla yarandığı gündən daim inkişaf edərək formalaşmış, ənənələrə sadiq qalaraq yeni yanaşmaları mənimsəyən və tətbiq etməyi bacaran ali təhsil müəssisəsinə çevrilməyə çalışmışdır. Bu, yüksək səviyyəli düşüncə tərzinə və zəngin intellektə malik idarə heyəti, bacarıqlı, professional müəllim heyəti, idarəetmədə beynəlxalq standartlara və yeniliklərə üstünlük verən elmi, akademik, administrativ heyətin mövcudluğu ilə mümkün olmuşdur. Bakı Musiqi Akademiyasında görkəmli bəstəkarlar, dirijorlar, musiqişünaslar, peşəkar ifaçılar, vokalçılar yetişmişdir. Beləliklə tədris prosesində Şərq musiqisinin çoxəsrlik ənənələrini və Avropa musiqi təhsilinin qabaqcıl təcrübəsini vahid məcrada birləşdirən, peşəkar musiqiçi kadrların hazırlanmasına və klassik musiqi irsimizin sistemli öyrənilməsinə xüsusi diqqət göstərən Bakı Musiqi Akademiyası ötən müddət ərzində nailiyyətlərlə zəngin böyük bir inkişaf yolu keçmiş, üzərinə düşən vəzifələrin öhdəsindən həmişə layiqincə gəlmişdir.

## TARİX

Bu şərəfli təhsil ocağının yaranması Azərbaycanda musiqi mədəniyyətinin tarixi inkişafı və XIX əsrin sonu – XX əsrin əvvəlləri milli demokratik hərəkatın yüksəlişi ilə bağlı olmuşdur. İctimai və siyasi həyatda baş verən dəyişikliklər mütərəqqi ziyalılar arasında yeni fikirlərin formalaşmasına kömək etdi, ədəbiyyatda və incəsənətdə parlaq hadisələrin meydana çıxmasına səbəb oldu, mürəkkəb tarixi dövrdə Azərbaycanın musiqi mədəniyyəti geniş miqyaslı və səmərəli inkişaf yoluna qədəm qoydu.

Azərbaycanın istedadlı maarifpərvərlər nəslinin görkəmli nümayəndəsi olan Üzeyir Hacıbəyli 1921-ci ildə əsl musiqi incəsənəti və təhsili ocağı – Azərbaycan Dövlət Konservatoriyasını (indiki Bakı Musiqi Akademiyası) yaratmış, onun təşəbbüsü ilə müsəlman Şərqinin yeni tipli ali musiqi təhsili ocağı fəaliyyətə başlamışdır. Bu yolda Üzeyir bəyin və onun əqidə yoldaşlarının çiyinlərinə Azərbaycanın yeni musiqi mədəniyyətinin təşəkkülü, ilk peşəkar musiqiçilərin, ixtisasçı kadrların təhsil prosesinin təşkili ilə bağlı çətin vəzifələr düşmüşdü. Azərbaycanda yeni peşəkar musiqi təhsilinin əsasını qoymuş konservatoriyanın ilk müəllimləri: Üzeyir Hacıbəyli, Leopold Rostropoviç, Kövkəb Səfərəliyeva, Mayor Brenner, Georgi Şaroyev, Bülbül, Sabir Əliyev və bir çox başqalarının adlarını xüsusi hörmətlə xatırlayırıq. Bakı Musiqi Akademiyasında meydana gəlmiş yaradıcılıq mühiti sayəsində ciddi peşəkar musiqi tədris sistemi təşəkkül tapmış, bütün ixtisaslar üzrə bir neçə nəsil Azərbaycan musiqiçiləri – bəstəkarlar, müxtəlif musiqi alətləri ifaçıları, musiqişünaslar, dirijorlar, vokalçılar yetişmiş və yetişməkdə davam edir. Məhz Üzeyir bəyin başçılıq etdiyi Azərbaycan bəstəkarlıq məktəbi parlaq adlarla təmsil olunur: Q.Qarayev, F.Əmirov, S.Hacıbəyov, Ə.Bədəlbəyli, R.Hacıyev, Niyazi, T.Quliyev, C.Hacıyev, A.Məlikov, V.Adıgözəlov, X.Mirzəzadə və bir çox başqaları.

Azərbaycan Dövlət Konservatoriyasının ilk rektorları – pianoçu L.Pressman və İ.Aysberq olmuşlar. 1939-cu ildə Ü.Hacıbəyli rəsmi olaraq Azərbaycan Dövlət Konservatoriyasının rəhbəri seçilir. Məhz o, bütün Azərbaycan musiqi mədəniyyətinin inkişaf yolunu istiqamətləndirmiş, cəsarətlə milli klassik ənənələrinin Avropa bəstəkarlıq yaradıcılığı ilə sintezini həyata keçirmiş, indi beynəlxalq miqyasda tanınan yeni növ Azərbaycan professional musiqi təhsilinin bünövrəsini qoymuşdur. Müxtəlif illərdə Azərbaycan Dövlət Konservatoriyasının rəhbəri vəzifəsində Q.Qarayev, Ə.Abbasov, C.Hacıyev, S.Hacıbəyov, B.Məmmədova (müvəqqəti rektor), E.Abbasova çalışmışlar. 1991-ci ildən Azərbaycan Dövlət Konservatoriyasının rəhbəri SSRİ və Azərbaycanın Xalq artisti, professor F.Ş.Bədəlbəylidir. Müxtəlif zamanlarda fəaliyyət göstərmiş sənətkarlar və hazırda olanların ənənələrini layiqincə davam etdirən musiqiçilərin əsas məqsədi Azərbaycan musiqi sənətinin həm ölkəmizdə, həm də xaricdə təbliği işinə böyük töhfələr verməkdir.

## MİSSİYA

Bakı Musiqi Akademiyasının missiyası dayanıqlı, innovativ təhsil və tədris infrastrukturuna malik olmaqla, musiqi sahəsi üzrə təhsil və tədqiqatlar yolu ilə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına və beləliklə peşəkar musiqiçilərin yetişməsinə töhfə verməkdir.

## VİZYON

Bakı Musiqi Akademiyasının vizyonu regionda özünəməxsus inkişaf modeli yaradaraq müasir və keyfiyyətli təhsilin, tədqiqatın mövcud olduğu ali musiqi təhsil ocağına çevrilməkdir.

## ƏSAS DƏYƏRLƏR

- Milli mənəvi dəyərlərə bağlılıq
- Layiqlilik
- Keyfiyyətlilik
- Şəffaflıq
- Peşəkarlıq
- Müasirlik
- Akademik azadlıq
- Akademik etika

## STRATEJİ MƏQSƏD, HƏDƏF VƏ FƏALİYYƏTLƏRİMİZ

Bakı Musiqi Akademiyasının məqsədi gələcəyin peşəkar musiqi mütəxəssislərini yetişdirmək, müasir, innovativ, daha da yüksək keyfiyyətə malik təlim və tədris ocağına çevrilməkdir. Ölkəmizdə musiqi mədəniyyətinin inkişafı, milli musiqi sənətimizin dünya musiqi mədəniyyətinə inteqrasiyası, eyni zamanda Avropa və dünya incəsənəti kontekstində davam etdirməsi, gənc istedadlarımızın beynəlxalq festival və müsabiqələrdə müntəzəm iştirakı, onların ölkə hüdudlarından kənarda təhsillərini davam etdirmək imkanları, musiqimizi beynəlxalq məkanda layiqincə təmsil edə bilmələri əsas hədəflərimizdəndir.

**MƏQSƏD 1. Daha da yüksək keyfiyyətə malik ali təhsil ocağına çevrilmək, musiqi mədəniyyətimizin inkişafı üçün istedadlı və peşəkar gənc nəsli yetişdirmək**

**HƏDƏF 1. Təlim və tədrisin keyfiyyətinin yüksəldilməsi, mütərəqqi prinsiplər, ideyalar, üsullar, innovativ və yaradıcı yanaşmalarla zəngin ali təhsil ocağına çevrilmək**

1.1.1 Yüksək bal toplamış, qabiliyyət imtahanlarında xüsusi istedad nümayiş etdirərək Bakı Musiqi Akademiyasını seçmiş abituriyentlərin sayının artırılmasına müvəffəq olmaq.

- *BMA tərəfindən orta ixtisas musiqi məktəbləri, musiqi kollecləri ilə fəal yaradıcılıq işlərinin görülməsi, tədbirlər çərçivəsində ustad dərslərinin keçirilməsi, elmi-metodiki dəstəyin verilməsi*

- *BMA tərəfindən keçirilən müsabiqə, festival, konfrans, tədbirlərə şəhər və regionlarımızdan musiqiçilərin cəlb olunması, istedadlı gənclərin müəyyən edilməsi, onların inkişafına xüsusi dəstəyin göstərilməsi*

1.1.2 Təlim və tədris proseslərinin təkmilləşdirilməsi.

- *Təhsil dövründə kompetensiyaların (bilik, bacarıq və vərdişlərin) formalaşdırılmasının təmin edilməsi*
- *İxtisasların siyahısının tədris standartları, tədris planları və tədris proqramlarının dünya təcrübəsi və əmək bazarının tələblərinə uyğunlaşdırılması*
- *Ali təhsilin bütün pillələri üzrə təhsilin gücləndirilməsi, yüksək keyfiyyətli təhsilalanların sayının artırılması üzrə mexanizmlərin hazırlanması*
- *Təlim və tədris proseslərində professor-müəllim heyətinin peşə və pedaqoji səriştələrinin inkişafına dəstəyin verilməsi*
- *Bütün ixtisaslar üzrə fənnlərin səmərəli və effektiv şəkildə keçirilməsinin təmin edilməsi, innovativ təlim və tədris metodlarından istifadənin genişləndirilməsi*
- *Yeni tədris metodları ilə müasir təhsil və təlim texnologiyalarının istifadəsinin təşviq edilməsi*
- *Tələbələrin təcrübələrinin təşkilinə nail olunması*
- *Mübadilə proqramında iştirak etmək istəyən tələbələrə dəstəyin göstərilməsi, onların proqrama cəlb olunması*
- *Keyfiyyətli təhsil sistemində təhsil almış yüksək bilik, bacarıq və vərdişlərə malik məzun və tədqiqatçıların yetişdirilməsi*

1.1.3 Daxili keyfiyyət təminatının inkişaf etdirilməsi, hesabatlılığın artırılması.

- *Təlim və tədrisin effektiv və səmərəli şəkildə keçirilməsinə diqqət yetirilməsi və keyfiyyətinə nəzarətin yüksəldilməsi*

- *Tədris olunan fənnlərin müasir istiqamətdə inkişafına nəzarət edərək kənar rəylərin nəzərə alınmasının təmin edilməsi*
- *Keyfiyyət təminatının ölçülməsi üçün yeni mexanizmlərin formalaşdırılması*

**MƏQSƏD 2. Bakı Musiqi Akademiyasında tədqiqat mühitinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi**

**HƏDƏF 2. Elmi fəaliyyətin artırılması, tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması**

2.1.1 Elmi tədqiqatçıların sayının artırılması və peşəkarlığın yüksəldilməsi.

- *Elmi və yaradıcılıq potensialının genişləndirilməsi,*
- *Elmi-tədqiqat işlərinin səviyyəsinin daha da yüksəldilməsi*
- *Magistrant və doktorantların BMA-da elmi tətqiqatlara cəlb edilməsi, eyni zamanda onların elmi-praktiki konfranslarda iştirakına dəstək göstərilməsi.*
- *BMA daxilində aparılan perspektivli tədqiqatlara dəstəyin göstərilməsi*
- *Yüksək keyfiyyətli tədqiqat fəaliyyətlərinin yerinə yetirilməsi üçün elektron və ənənəvi mənbələrə çıxışın təmin edilməsi*

2.1.2 Tədqiqat-innovasiya istiqamətində inkişafa diqqət yetirilməsi.

- *Dissertasiya işlərinin nəticələrinin musiqi elminin aktual problemlərinə tətbiqinin təmin edilməsi, BMA daxilində aparılan tədqiqatların perspektivliyinə dəstəyin göstərilməsi.*
- *Magistratura və doktorantura təhsilinin qabaqcıl dünya təcrübəsinə əsaslanması və təhsil proqramlarının müasirləşdirilərək dünya təcrübəsinə uyğunlaşdırılması.*

**MƏQSƏD 3. Bakı Musiqi Akademiyasının beynəlmiləlləşməsi.**

**HƏDƏF 3. Bakı Musiqi Akademiyasının fəaliyyətinin beynəlxalq səviyyədə tanınması, müəllim və tələbələrimizin beynəlxalq səviyyədə yaradıcı və bacarıqlı olmalarının təmin edilməsi**

3.1.1 Beynəlxalq əməkdaşlıqların inkişaf etdirilməsi, yeni strateji beynəlxalq əlaqələrin qurulması

- *Dünya miqyasında tanınmış musiqi təhsil müəssisələri və qurumları ilə strateji əməkdaşlıqların müəyyənləşdirilməsi, qurulması və inkişaf etdirilməsi.*
- *Ali musiqi və incəsənət təhsil müəssisələri ilə birgə layihələr, mübadilələr və tədqiqat təşəbbüsləri vasitəsilə mövcud olan əməkdaşlıqların gücləndirilməsi.*
- *Potensial tərəfdaş institutlarının hərtərəfli təhlilinin aparılması və strateji məqsədlərə, akademik və mədəni uyğunluğa əsaslanan əməkdaşlığın prioritetləşdirilməsi,*

3.1.2 Beynəlxalq ikili diplom proqramlarının yaradılması

- *Ali musiqi təhsil müəssisələri ilə beynəlxalq ikili diplom proqramlarının yaradılması və imkanlarının genişləndirilməsi, təhsilin müxtəlif pillələrində beynəlxalq ikili diplom proqramlarının yaradılmasına dəstəyin verilməsi.*

3.1.3 BMA-nı geniş miqyasda tanıtmaq üçün hərtərəfli marketinq strategiyasının hazırlanması.

- *Maraqlı vebsayt, sosial media platformaları və müntəzəm məzmun yeniləmələri vasitəsilə BMA-nın fəaliyyətinin daha geniş miqyasda tanıdılması.*
- *Beynəlxalq sferada tanınmağı artırmaq üçün beynəlxalq media orqanları və musiqi nəşrləri ilə güclü əlaqələrin qurulması.*
- *Tanınmış beynəlxalq musiqiçilər və alimlər tərəfindən keçirilən ixtisaslaşdırılmış kurslar, ustadlıq dərsləri və seminarların təklif edilməsi.*
- *Professor-müəllim heyətinin, tələbələrin iştirakını və təbliğini təşviq etməklə beynəlxalq musiqi festivalları, müsabiqələr və təşkilatlarla əlaqələrin gücləndirilməsi.*

3.1.4 Beynəlxalq mübadilə proqramlarında iştirak edən müəllim, tələbə və inzibati işçilərin sayının artırılması

- *Tələbə mübadiləsi proqramları üçün mədəni immersiya və bilik mübadiləsinə imkan yaradılması, beynəlxalq səviyyədə musiqi ənənələri və metodologiyasının mövcud proqramlarımıza inteqrasiya edilməsi, musiqi təhsili üzrə qlobal perspektivi əhatə edən innovtiv və fənnlər arası kurikulumların hazırlanması.*

**MƏQSƏD 4. Bakı Musiqi Akademiyasının məzunlarla iş prosesinin effektivliyinin artırılması və gücləndirilməsi**

**HƏDƏF 4. Bakı Musiqi Akademiyası məzunlarının daim diqqət mərkəzində olmasının təmin edilməsi, onlarla əlaqələrin gücləndirilməsi**

4.1.1 Məzunlarla əlaqə vasitələrinin genişləndirilməsi

- *Məzunların elektron məlumat bazasının formalaşdırılması.*
- *Məzunlarla daim əlaqədə olaraq BMA-da təşkil olunan tədbirlərdə onların iştirakının təmin edilməsi.*
- *BMA məzunlarının əmək bazarına qoşulması və orada davamlı qalması üçün müəyyən dəstəyin verilməsi.*
- *Məzunların işlə təmin olunması üçün "Təcrübə və məzunlarla iş şöbəsi" tərəfindən gənc mütəxəssislər üçün mədəniyyət sektorlarında vakant yerlər haqqında məlumat bazasının yaradılması, onun daimi yenilənməsi.*

**MƏQSƏD 5. Dayanıqlı inkişafın təşviq olunması**

**HƏDƏF 5. Dayanıqlı inkişaf məqsədlərinə nail olunması**

5.1.1 Dayanıqlı İnkişaf Məqsədlərinin tələblərindən irəli gələn inkişafdan bəhrələnməsi və onların dayanıqlı inkişafına nail olunması

- *Hamı üçün əlçatan və bərabər keyfiyyətli təhsilin təmin edilməsi*
- *Dairəvi İqtisadiyyat və yeni inkişaf modellərinin genişləndirilməsi*
- *Gənclərin və qadınların inkişafının rolunun artırılması*
- *Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyinin artırılması*
- *Ətraf mühitin qorunması, "Yaşıl artım" prinsiplərinin dəstəklənməsi və iqlim dəyişikliyi ilə mübarizə aparılması*
- *Dayanıqlı ağıllı şəhərlər və regionlar konsepsiyasının dəstəklənməsi*